# KÖKLÜ AĞACIN UCALIQ SİRRİ

di. Onda qəribə bir cazibə qüvvəsi vardı. İlk dəfə onunla təmasda olanlar yenidən onunla ünsiyyətə can atardı…

***Birgə iştirakçısı olduğum məclislərdə, toy şənliklərində onunla şer deyişmələrinə qoşulmağı çox sevərdim. Bu məclis əhlindən çox mənə zövq verərdi. Çünki o da poeziya vurğunu idi. Azərbaycan klassiklərinin əsərlərindən nümunələri həmişə böyük ehtiras və coşqu ilə söyləyərdi. Seçib əzbərlədiyi və könül dəftərinə köçürdüyü bu poeziya nümunələri onun ruhunun ifadəçisi idi. Şer söylərkən bu ruh sanki maddi dünyanın sıxıntılarından, əzab və işgəncələrindən qurtularaq başqa bir aləmə yön alırdı. Bu aləmdə nələr yox idi?... Gözəllik, eşq, məhəbbət, həsrət, vüsal… O özünü bu sirli-sehirli dünyanın əzəli və əbədi sakini sanırdı…***

Şəxsiyyətinə, elminə, istedadına bələd olanlar, onu sevənlər ona hər zaman "Böyük" deyə müraciət edərdilər. Bu onun titulu idi. O bu ada layiq idi… Əslində isə valideynləri ona Böyükağa adını vermişdilər. Böyükağa Kazımov! Kim idi Böyükağa Kazımov? Gözəl aktyor, istedadlı rejissor və böyük pedaqoq!

Böyükağa Kazımovun pedaqoji fəaliyyətə başladığı dövrlərdə Teatr institutunun təşkilat quruluşunda bəzi dəyişikliklər edilmişdi. İnstitut ittifaq tabeliyindən çıxarılaraq respublika sərəncamına keçirilmişdi. 6 ixtisas üzrə mütəxəssis hazırlığına başlanılmışdı. Hökumətin "Elmi kadrların seçilməsi və hazırlanmasını yaxşılaşdırmaq tədbirləri haqqında"kı qərarından (18 may 1962-ci il) sonra aktyor və rejissor sənəti sahəsində təcrübəsi olan mütəxəssisləri, tədris dövründə qabiliyyətilə seçilən məzunları institutda saxlamaq yolu ilə pedaqoji heyəti möhkəmlətmək üçün (1960-cı ildə professor və müəllim heyətinin sayı 80 nəfərdən ibarət idi) tədbirlər görülməyə başlamışdı. "60- cı illərdə pedaqoji işə başlayan məzunlar sonralar institutun müəllim heyətinin özəyini təşkil etmişlər. Onların arasında aktyor və rejissor sənətləri üzrə E.Şabanovanı, N.Qazıyevanı, B.Kazımovu, F.Hacıyevi, Z.Hacıyevanı, F.Zöhrabovu, V.Ağayevi, səhnə danışığı üzrə Ə.Quliyevi,Ə.Dadaşovu, Ə.Vəliyevi, səhnə hərəkəti üzrə H.Hüseynovu, R.Məmmədovanı, qrim üzrə F.Əliyevi, Y.Yunusovu və başqalarını göstərmək olar" (1, s.64).

Bu illər - 60-70-ci illərdə V.Meyerxold, A. Tairov kimi rejissorların yaradıcılıq ənənələrinin və iş metodlarının öyrənilməsinə, B.Brextin nəzəri və təcrübi irsinin mənimsənilməsinə maraq güclü idi. Şübhəsiz ki, bu ümumi teatr prosesi ilə bağlı idi. Yeni, orijinal janr, üslub və forma axtarışında olan teatrın istedadlı aktyorlara ehtiyacı bu baxımdan böyük idi. "İnstitutun aparıcı müəllimləri yaxşı başa düşürdülər ki, bu vəzifəni yerinə yetirmək üçün tələbələri təkcə peşəkarlıq baxımından hazırlamaq kifayət deyil, eyni zamanda onları yüksək mədəni və intellektual səviyyəsilə fərqlənən yaradıcı şəxsiyyət, müasir sənətkar kimi hazırlamaq lazımdır" (1, s.65).

Bu məqsədlə dəvət olunan səriştəli rejissorların kurs və diplom tamaşaların hazırlanmasında gənc müəllimlərə yardımı ənənə halını almışdı. Bəziləri bunu ixtisas müəlliminin yaradıcılığının zəifliyi kimi yozsa da əslində bunun təsiri çox böyük idi. M.Haşımov, R.Təhmasib kimi böyük sənətkarlardan dərs alan B.Kazımov aktyor sənətinin tədrisində M.Məmmədov, A.İsgəndərov kimi korifey rejissorların təcrübələrindən bəhrələnirdi.

Hələ tələbəlik illərindən sənətinə və şəxsiyyətinə pərəstiş etdiyi M.Məmmədovun mühazirələrini dinləməkdən, onun saatlarla uzanan məşqlərində iştirak etməkdən yorulmayan Böyükağa müəllim, gənc müəllim kimi fəaliyyətə başlayanda da çiyin-çiyinə çalışdığı bu sənət xadimi ilə mütəmadi şəkildə yaradıcılıq mübadiləsində olurdu.

Təbii ki, hər bir sənət müəlliminin öz dəsti-xətti, öz yolu, öz üslubu var idi. Böyükağa müəllimin tədris metodu da məhz bu üslubların sintezindən yaranmışdı.

B.Kazımovun pedaqoji fəaliyyətə başladığı dövrü İncəsənət institutunun (o vaxt belə adlanırdı) qızıl dövrü hesab etmək olar. Bu dövrdə teatr təhsili ilə kimlər məşğul olmurdu? R.Təhmasib, A.İsgəndərov, M.Məmmədov, M.Haşımov, S.Dadaşov, Ə.Sultanov, T.Kazımov, Z.Nemətov, Ə.Ələkbərov, K.Həsənov, S.Turabov, M.Dadaşov, M.Cənizadə, C.Cəfərov, K.Kərimov və b... B.Kazımov bu sənət korifeyləri ilə eyni vaxtda və bir yerdə çalışdığı üçün həmişə fəxr edər, öyünərdi. Buna onun haqqı vardı. Çünki o bu sənət xadimlərinin birbaşa yardımı və xeyir-duası ilə sənətə, teatr təhsili sahəsinə vəsiqə almışdı…

Tələbəlik illərindən tanıyırdım onu. Düzü mənə dərs deməmişdi, amma tələbələrinin onun haqqındakı söhbətlərindən, rəhbəri olduğu kursun hazırladığı tamaşalardan, işlədiyi kollektivin ona olan hörmət və rəğbətindən hiss etmişdim ki, Böyükağa müəllim gözəl bir pedaqoq kimi böyük nüfuza malikdir. Bəlkə də elə buna görəydi ki, mən hələ tələbəliyimin ilk illərindən Azərbaycan televiziyasındakı çıxışlarımla bağlı onun da fikirlərini eşitmək, sənətdəki ilk uğurlarımı onunla da bölüşmək istəyindəydim. Demək olar ki, hər gün institutun dəhlizində qarşılaşırdıq və hər dəfə də böyük ehtiramla ona ünvanladığım salamı başının işarəsi ilə cavablandırıb keçib gedərdi. Etiraf edim ki, bu mənə ağır gələrdi - sənətimə qarşı özümdə bir inamsızlıq oyadardı. Çox qəribəydi, nədənsə bir yaradıcı tələbə kimi onun xeyir-duasına mənəvi ehtiyac hiss edirdim. Günlərin bir günü Böyükağa müəllim məni saxladı, hal-əhval tutdu. Yiyələndiyim ixtisasla, kurs rəhbərimlə maraqlandı və sonra ərklə əlini çiynimə qoyaraq çox xəsisliklə, lakin amiranə şəkildə belə söylədi: "Sən bu sənəti davam etdirməlisən. Sənə uğurlar!" Və tale elə gətirdi ki, mən sonralar Böyükağa müəllimlə bir kollektivdə, daha sonra isə bir kafedrada çalışası oldum. Onu yaxından tanıdıqca hiss etdim ki, Böyükağa müəllim qayğıkeş, humanist bir insan olmaqla yanaşı, həm də öz işinə məsuliyyətlə yanaşan, ciddi, tələbkar bir teatr pedaqoqudur.

Böyükağa müəllimə görə teatr pedaqogikası bir sənətdir. "Və nə qədər ki, o özü sənətdir, onun fəaliyyət obyekti də sənətdir və o həmişə bu və ya digər pedaqoqun yaradıcılıq fəaliyyəti ilə özünəməxsus gözəlliklə bəzədiləcəkdir" (2, s. 6).

Bu gözəlliyin yaradıcılarının teatr pedaqogikasındakı xidmətlərini qədirşünaslıqla yad edən Böyükağa müəllim həyatının mənasını bu gözəlliyə xidmətdə gö-

rürdü. Və tələbələrinə də bunu tövsiyə edirdi. Səhnə sənətinin incəliklərini tələbələrinə aşılayarkən sənət müəllimi M.Haşımovun pedaqoji təcrübəsindən ürəklə, ağızdolusu danışardı: "M.Haşımovun obrazlı təfəkkürü, pedaqoqluğu, başa salmaq qabiliyyəti o qədər güclü idi ki, hər hansı bir fikri izah edəndə biz elə bil söhbət eşitmir, rəngli televizora baxırdıq, elə bil dediklərini həyatda görür, zərif və incə rənglər aləminə düşürdük" (2, s.9).

Bəli, bu rənglər aləmində böyüyüb, püxtələşmişdi Böyükağa müəllim. "Hər rəngin öz gözəlliyi var" deyiblər. Rənglərin harmoniyasına nail olmaq üçün səhnədə hər şeyin təbiiliyini tövsiyə edirdi Böyükağa müəllim. Və hər dəfə də ustadının fikirlərinə istinad etməkdən yorulmurdu: "Məhərrəm müəllim deyirdi ki, səhnə - güzgüdür, lakin adi güzgüdən fərqi ondadır ki, səhnə güzgüsü insanı bir qədər böyük, güclü və baxımlı edir" (2, s.10).

Bu güzgüdə obrazın mənəvi dünyasının, onun xarakterinin rəngli, əlvan boyalarla təsvirinə xüsusi önəm verirdi Böyükağa müəllim və ustadı kimi tələbələrindən də bunu tələb edirdi: "Səhnədə necə görünməyiniz haqqında, sözlərinizin təmtəraqlı söylənməsi haqqında düşünməyin, məqsədi yerinə yetirməyə çalışsanız, hər şey öz-özünə alınacaq. Çünki biz həyatda iş görərkən, fəaliyyətdə olarkən görkəmimiz, səsimiz, danışıq texnikamız, duruşumuz haqqında düşünmürük" (2, s.11).

Tələbələrinə yaradıcılıq məqsədlərini həyatın özündə axtarıb tapmağı tövsiyə edən B.Kazımov qeyd edirdi ki, sənətkar dövrün bədii tələbləri ilə yaşamağı bacarmalıdır. Aktyor səhnə əhvalına xüsusi fikir verməli, sözlə hərəkəti səhnə sənətinin bir hissəsi kimi götürməlidir.

Böyükağa müəllimə görə yaradıcılıqla həyat arasındakı qarşılıqlı əlaqənin düzgün müəyyənləşməsi Stanislavski sisteminə ümumdünya mahiyyəti verir. O, sənətkarlığı, təbiiliyi həyatdan öyrənmək üçün Stanislavski irsini "yol göstərən", "istiqamət verən kompas" adlandırır və buna görə də tədris prosesində bu sistemi vahid yaradıcılıq qanunu kimi qəbul edirdi. Böyükağa müəllim deyirdi ki, "sistem"i bəyənməyənlər, onun köhnəldiyini söyləyənlər "sistem"i dərk edə bilməyənlərdir. Onu ehkam kimi qəbul etmək də düzgün deyildir. Təbii ki, o daim zənginləşməlidir.

Böyükağa müəllim söyləyirdi ki, pedaqoqun ən böyük məharəti hiss və emosiya ilə düşüncənin, ağlın paralel fəaliyyətinə nail olmaqdır və təbii ki, yüksək sənət nümunəsi hər iki nəzəriyyənin qovuşuğunda, vəhdətində gözəl bəhrə verir. Bu baxımdan o, yüksək elmi nəzəriyyəyə, metodiki qabiliyyətə, professional vərdişlərə malik olan S.Dadaşovun zəngin, çoxşaxəli və əhatəli pedaqoji metodunu müasir elmi-nöqteyi nəzərdən qiymətləndirməyin və tədris prosesində tətbiq etməyin tərəfdarı kimi çıxış edirdi: "Soltan Dadaşov pedaqoq kimi teatr sənətinin sirlərini adi və sadə, bir növ elə incə məqamlarla, usta üsulla tədris edirdi ki, hər bir tələbə onun dediklərini çətinlik çəkmədən qavrayır və tələbə təfəkküründə təhlil edərək özününküləşdirirdi" (2, s.16).

B.Kazımov, həmçinin etüd və məşğələlərə ciddi yaradıcılıq prosesi kimi yanaşan rejissor-pedaqoq R.Sarabskinin pedaqoji ustalığından-praktikanı nəzəriyyə ilə uzlaşdırmaq keyfiyyətindən söhbət açırdı: "O qeyd edirdi ki, mühüm məsələ ondadır ki, tələbə özünü kəşf etsin, sənətdə özünü tapsın, özünü yaxından tanısa, özünü dərk etsə, onda şüurlu olaraq sənətinə münasibəti ciddi və yaradıcı şəkildə olacaq. Rza müəllim çalışırdı ki, tələbələri hər hansı bir tamaşaya, tabloya, rəsm əsərinə baxdıqdan sonra sərbəst şəkildə öz münasibətlərini çəkinmədən söyləsinlər" (2, s.21).

Böyükağa müəllim teatr təhsili ilə məşğul olan təlim ocağını aktyor və rejissorların gələcək professional həyatlarının astanası - uzun və yaradıcı həyat məktəbi üçün insan xarakterini formalaşdıran hazırlıq sinifləri adlandırırdı və eyni zamanda bu siniflərdə dərs deməyin nə qədər çətin və məsuliyyətli olduğunu vurğulayırdı: "Şübhəsiz ki, məşhur bir rejissor və aktyorda gözəl pedaqoqluq istedadının olmas gözəl bir təsadüfdü. Ancaq təəssüf ki, bu çox nadir hallarda ola bilər. Ola bilər ki, bunlar bir-birinə oxşar və yaxındır, ancaq ayrı-ayrı sənətlərdir. Bir adamda iki qabiliyyət ola bilər, ancaq həqiqətdə isə onlardan biri vəzifə, biri isə istedaddır" (2, s.7).

Məhz bu təsadüfün nəticəsi idi ki, tanrısı ondan bu hər iki gözəl keyfiyyəti əsirgəməmişdir.

"Azərbaycan teatrşünaslığında teatr pedaqogikası adlanan heç bir şey yoxdur. Başqa ölkələrdə isə "teatr pedaqogikasına" həsr olunmuş əsərlər demək olar ki, azdır. Bu baxımdan tədris prosesində, teatr tarixinin öyrənilməsində, ümumilikdə mədəniyyətimizin tədqiqində "teatr pedaqogikasının" öyrənilməsinə böyük lüzum və ehtiyac vardır. Maraqlıdır ki, teatrşünaslarımız da bu problemə toxunmağa ehtiyat ediblər. Çünki teatr pedaqogikasından yazmaq, həm gözəl pedaqoq, həm də istedadlı teatrşünas, alimlik keyfiyyətləri tələb edir. B.Kazımovun "Teatr pedaqogikası" əsəri isə teatrşünaslıqdakı ehtiyat xofunu, tərəddüd dumanını aradan götürə bildi". "Teatr pedaqogikası" adlı dərs vəsaiti haqqında sənətşünaslıq namizədi, professor R.Sadıqovun söylədiyi bu fikirlər (kitabın "Ön söz" hissəsində) onu deməyə əsas verir ki, Böyükağa müəllim gözəl sənətkar-pedaqoq olmaqla yanaşı, həm də istedadlı nəzəriyyəçi idi. Onun "Rejissor və aktyor sənəti" fənninin tədrisinə kömək məqsədilə tərtib etdiyi proqramları, dərslik, dərs vəsaitləri, sənətin müxtəlif problemləri ilə bağlı qəzet və jurnal səhifələrində çap etdirdiyi elmi məqalələri, respublika və beynəlxalq səviyyədə keçirilən simpoziumlardakı çıxışları müəllim və tələbələrimiz üçün bu gün də çox dəyərlidir.

Böyükağa müəllimin Azərbaycan teatrının 100 illiyi münasibətilə çapdan çıxan "S.Vurğun və teatr" adlı monoqrafiyası müasirlik və novatorluq axtarışında olan teatrın əldə etdiyi yaradıcılıq nailiyyətlərini dəyərləndirmək baxımından xüsusi əhəmiyyətə malikdir.

"Vaqif" əsərini Azərbaycan dramaturgiyasının tarixində yeni bir inkişaf mərhələsi hesab edən B.Kazımov S.Vurğunu milli teatrda öz sələflərinin - H.Cavidin, C.Cabbarlının gözəl ənənələrini davam və inkişaf etdirən, öz təcrübəsilə bu ənənəyə rəng qatan, poetik teatrın ənənələrini yaradıcılığında yeni bir mərhələyə çatdıran böyük sənətkar kimi xarakterizə edir. "Realizm ilə inqilabi romantika, vətənpərvərlik, qəhrəmanlıq, insan səadəti, gözəlliyi S.Vurğun teatrının poetik əsasını təşkil edirdi" (3, s.4).

Şairin mənzum dram janrına müraciətini təbii və qanuni hal kimi dəyərləndirən B.Kazımov yazır: "S.Vurğun teatrını qidalandıran başqa bir mənbə də zəngin Azərbaycan poeziyasıdır. Və bö-



yük Nizaminin fəlsəfi, obrazlı yaradıcılığı, Vaqifin mənalı sadəliyi, həyat gözəlliklərinə əsaslanmaq ənənələridir" (3, s.5).

B.Kazımov qeyd edir ki, dolğun, canlı, monumental xarakterlər, dərin məntiq qüvvəsinə malik olan obrazlar ustası olan S.Vurğun "Vaqif" əsəri ilə teatra yeni fikir, yeni zövq, yeni düşüncə gətirmişdi və bu əsərin tamaşasında rejissor bir sükançı rolunu oynamışdı: "A.İsgəndərov yaxşı bilirdi ki, "Vaqif" tamaşasının hazırlığı teatrın yaradıcılıq həyatında nəzərə çarpan yüksəlişin davam etdiyini göstərməlidir. Bu C.Cabbarlı dramaturgiyası ilə başlayan dramaturji və bədii inkişafın müvəqqəti sükutunu pozan M.İbrahimovun "Həyat" pyesinin gətirdiyi yeni yaradıcılıq həyatının layiqli davamı, yüksəliş pilləsi olmalıdır. Buna görə də rejissor və tamaşada məşğul olan kollektiv özlərinin səhnə mədəniyyəti, obraz yaratmaq yolundakı sənətkarlıq axtarışlarını daha da genişləndirir, sözə yaradıcı, bədii münasibət bəsləmək vərdişlərini də yüksəldirdilər. Bu işdə A.İsgəndərov hər bir aktyora fərdi yanaşır, rolla aktyor arasındakı məsafəni aradan qaldırmağa çalışırdı və demək olar ki, o öz məqsədinə tamamilə nail olurdu" (3, s.16).

Mütəfəkkir şairin, ağıllı dövlət xadiminin, yenilməz zəka sahibinin nəcib və məğrur təbiətinin ifadəli və təsirli şəkildə təqdiminə çalışan K.Ziyanın və Ə.Ələkbərovun Vaqifini xalqın ümidi, arzu və düşüncələrinin ifadəçisi kimi xarakterizə edən B.Kazımov yazır: "Kazım Ziyanın ifasında Vaqif dərdli, qəmli şair, dövrün ədalətsizliyini görüb kədərlənən, ona qarşı mübarizənin lazımi nəticə verməyini görüb qəzəblənən ağıllı, düşüncəli vətəndaş, yanar ürəkli vətənpərvər kimi tamaşaçıların rəğbətini qazanmışdı. Lakin Kazım Ziya - Vaqif səhnədə öz xüsusi həyatı ilə təkbaşına yaşayır; o mübarizədə dirçələn, böyüyən, bərkiyən, xalqın ruhi yüksəlişini və qətiyyətini lazımınca duymurdu.

Kazım Ziyanın Vaqifi "nəcib, müdrik və bir az dalğın idi. Vaqifin həyata bəslədiyi nikbin münasibət o qədər də gözə çarpmırdı. Onun gözlərində həmişə bir kədər görmək olardı". Onun yaratdığı Vaqifin ümumi təsiri Ə.Ələkbərovun Vaqif obrazının oyatdığı təsirlə bərabərləşmirdi. Ancaq bu aktyorların hər ikisi maraqlı, məzmunlu, fərdi xüsusiyyətli obrazlar yaratmışlar" (3, s.24).

B.Kazımova görə poetik teatr ənənələrini və xalq qəhrəmanlıq dram janrını yeni yüksək mövqeyə çatdırmağa nail olan şairin axıcı dili, dərin fikrə, mənalı poeziyaya əsaslanan poetik teatrı özünün gözəlliyilə seçilirdi. "A.S.Puşkin yazmışdır: "...faciədə nə inkişaf edir? Onun məqsədi nədir? İnsan və xalq. Bəşəri tale və xalq taleyi". Puşkinin bu nəzəri mülahizələri S.Vurğunun "Vaqif" xalq faciəsi üçün də xarakterikdir. Tarixi hadisələri səhnədə əks etdirməyin klassik nümunələrini Şekspir və Puşkin çox gözəl dərk etmiş, onu əməli təcrübədə sınaqdan keçirmişlər.

S.Vurğun başqa bir ictimai şəraitin, dövrün və mühitin şairi kimi "Vaqif" pyesini yazarkən bu ənənələrə də yaradıcı yanaşmış, şair, xalq, zaman və şair məsələlərini qarşıya qoyub yüksək bədiiliklə həll etmişdir" (3, s.9).

B.Kazımovun fikrincə, dramaturgiyanı inkişafdan saxlayan konfliktsizlik nəzəriyyəsinə qarşı çıxan, mənə gözəlliyini, dərinliyi, bitkinlik və kamilliyi müdafiə edərək teatrda təbiiliyi, sadəliyi, ağıl və emosiyanı təqdir edən, sənətkarları da sənətin belə bir mövqeyini inkişaf etdirməyə səsləyən Vurğun teatrının həyat gücü onun dramaturgiyasının müasirliyində, humanist və beynəlmiləlçiliyindədir. O həmçinin qeyd edir ki, müasirliyi tamaşanın zahiri əlamətində deyil, onun məna və məzmununda axtaran, bunun üçün ideyalılıq, sənətkarlıq və monumentallıq mövqeyində durmağı vacib sayan bu teatr ümumiləşdirmə yolu ilə bütöv və tipik xarakterlər yaratmaq vəzifəsini qarşıya qoymuşdur.

B.Kazımov dramaturqun teatr haqqında dövrü mətbuatda çap olunan fikirlərinə istinad edərək yazır: "S.Vurğunun teatr haqqında düşüncə və mülahizələri gözəl bir irsdir. O, hər bir yazısında qeyd və çıxışlarında Azərbaycan teatrının inkişafı, onun müasirlik, sənətkarlıq perspektivləri və dramaturgiyamızın müasirlik problemləri haqqında maraqlı, qiymətli fikir söyləmiş, yaradıcı kollektivi irəliyə, yüksəlişə səsləmişdir" (3, s.62).

"Vaqif" pyesinin səhnə taleyi", "Xanlar" pyesinin tamaşaları", "İnsan" təfəkkürün tamaşası", "Fərhad və Şirin" tamaşası dövrün tələbi idi", "İnsan", "S.Vurğunun estetik və sənət duyğuları" adlı elmi yazılarında da B.Kazımov, Vurğun teatrının milli səhnə sənətinə - rejissor və aktyor sənətinə gətirdiyi yenilikləri sadalamaqla yanaşı, gənc nəsillərə bu teatrın irsindən faydalanmağı tövsiyə edir.

"Vurğunun səhnə əsərlərinə maraq bütün dövrlərdə güclü olmuşdur. Lakin təəssüflə qeyd etmək istərdik ki, bütün bunların araşdırılıb bu günki nəslə çatdırılması sahəsində az iş görülüb. Əslində hazırki dövrdə mənzum dram əsərləri yazan müəlliflərimiz S.Vurğun dramaturgiyasının bulağından su içirlər. Bütün bunların izlənilməsi də S.Vurğun dramaturgiyasının nəhəngliyini bir daha təsdiq edə bilər.

B.Kazımovun yeni tədris vəsaitinin nəşr edilməsi bu sahədəki boşluğa müəyyən işıq salır" (4, s.4).

B.Kazımov Azərbaycan mədəniyyətində, eyni zamanda səhnə sənətində və həmçinin teatr təhsili sahəsində ənənə tərəfdarı idi. "Keçmişinə xor baxanı, gələcək top, tüfənglə qarşılayar" məsəlinə istinad edərək hər bir yenilikdə, hər bir inkişafın özündə varisliyin, ənənəviliyin tərəfdarı kimi çıxış edən B.Kazımov tələbələrinə keçmiş ənənələrdən - rejissor və aktyor məktəbinin əsasını qoyan C.Zeynalov və H.Ərəblinski ənənələrindən bəhrələnməyi, onu inkişaf etdirərək gələcək nəslə ötürməyi tövsiyə edirdi. Və qürur hissi ilə qeyd edirdi ki, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin respublikamızın mədəni həyatındakı fəaliyyəti bir tədris prosesi kimi özünəməxsus xüsusiyyətlərə malik olmaqla böyük əhəmiyyət kəsb edir. "Universitet mədəniyyət və təhsilimizin salnaməsidir. Bu salnaməni vərəqlədikcə böyük şəxsiyyətlər - dramaturqlar, yazıçılar, aktyorlar, rejissorlar, rəssamlar, alimlər, ziyalılar taleyi üzə çıxır. Universitet tədris ocağı adını daşımaqla yanaşı bir elm mənbəyi, həmişəyaşar sənət ocağı olmuşdur. Neçə-neçə görkəmli sənətkarımız bu sənət məbədində böyümüş, sənət aləminə addım atmış, yenidən bu ali məktəbin divarları arasında öz "məktəblərini", "şagirdlərini", "davamçılarını" yaratmışlar. Bu ənənə indi də davam edir. Ali məktəb öz varislik prinsiplərinə sadiqdir" (4, s.7).

B.Kazımov sənətkar şəxsiyyətinə həmişə böyük önəm verirdi. Məhz buna görə də tələbələrinin sənətkar - şəxsiyyət kimi formalaşmasında maraqlı idi...

B.Kazımov o xoşbəxt pedaqoqlardandır ki, vaxtilə onun yetişdirdiyi tələbələrin bir çoxu bu gün Azərbaycan mədəniyyətinin, milli teatr sənətinin işıqlı simalarının - görkəmli nümayəndələrinin sırasında yer almışlar. Buna misal olaraq İ.Əsgərov, F.Mütəllibova, Z.Nərimanova, N.Novruzova, E.Haşımova, R.Dadaşov, R.Mustafayev, V.Əliyev və b. adlarını çəkmək olar. Tələbələrinin bir çoxu (V.Həsənov, F.Abbasova, Ə.İsmayılov, M.Dəmirova, N.Rəcəbova və b.) indi də onun yolunu davam etdirərək Azərbaycan mədəniyyətinin və incəsənətinin inkişafı üçün ixtisaslı kadrların hazırlanması işinə xidmətlərini göstərməkdədirlər. Bu gün Azərbaycanın elə bir bölgəsi tapılmaz ki, oradan Böyükağa müəllimin yetirmələrinin səsi gəlməsin.

B.Kazımov 40 il pedaqoji fəaliyyətlə məşğul olmuşdur. Bu dövrdə o 9 il fakültə dekanı, 13 il kafedra müdiri vəzifələrində çalışmışdı. Bu müddətdə o, bir rejissor-pedaqoq kimi böyük dramaturqların - V.Şekspir ("İki veronalı", 1980), K.Qoldoni ("Məzəli hadisə", 1986), S.S.Axundov ("Eşq və intiqam", 1983), M.Y.Lermantov ("İspanlar", 1980), B.Vahabzadə ("Alim olmaq asandır"-"Vicdan", 1983), İ.Əfəndiyev ("Mahnı dağlarda qaldı", 1982), H.Cavid ("Ana", 1983), A.Şirvanzadə ("Namus", 1976) pyeslərinin səhnə təcəssümünə nail olmuşdur.

Onun "Şöhrət və ya unudulan adam" (N.Hikmət) tamaşası Tbilisi teatrının, "Günəşlə qalın" (A.A.Papayan) tamaşası isə Yerevan teatr institutunun səhnəsində uğurla oynanılmışdır.

Tbilisi Teatr İnstitutunun rektoru, doktor E.Ququşvili, doktor V.Qoqidze, xalq artisti M.Tumanaşvili, dramaturq A.Papayan, Leninqrad Böyük Dram Teatrının baş rejisssoru Qribaçov və b. B.Kazımovun quruluş verdiyi tamaşalar haqqında dövrü mətbuat səhifələrində dəyərli fikirlər söyləmişlər.

Böyükağa müəllimin hazırladığı tamaşalar böyük səhnələrdə - A.M.Şərifzadə adına Aktyor evinin, Gəncə Dövlət Dram Teatrının səhnələrində oynanılmış, dövlət televiziyasının efirində nümayiş etdirilmişdir.

Yaxşı xatırlayıram, Böyükağa müəllimin görkəmli rejissor-pedaqoq Nəsir Sadıqzadə ilə çox isti münasibətləri vardı. Nəsir müəllim hər dəfə məşqdən sonra bizim kafedraya - Böyükağa müəllimin rəhbəri olduğu "Kütləvi tədbirlər və bayramlar rejissorluğu" kafedrasına baş çəkmədən evinə yollanmazdı. Və hər dəfə də Böyükağa müəllim onun üçün məxsusi bir "çay dəstgahı" açdırardı. Nəsir müəllimin şirin, dadlı-duzlu söhbətləri, Böyükağa müəllimin acılı-şirinli xatirələri bu "dəstgaha" xüsusi rəng qatardı. İncəsənətin müxtəlif sahələri ilə bağlı diskussiyalar başlayardı. Fikir mübadilələri zamanı mübahisələr qızışardı. Stanislavski sistemi, onun hərəkətli təhlil metodu, hər iki metodun özəl xüsusiyyətləri, onların tətbiqi yolları, milli teatr sənətinin müasir problemləri və s. məsələrlə bağlı saatlarla çəkən mübahisələr hər dəfə Böyükağa müəllimin poetik çıxışı ilə tamamlanardı…

"Köklü ağacın ucalıq sirri kiçik bir toxumdadır" deyirlər. Sadə bir neftçi ailəsində böyüyən Böyükağa müəllim kiçik qəlbində dünya boyda bir məhəbbət gəzdirirdi. İnsanlığa, gözəlliyə aşinalığı idi onu yaşayıb-yaratmağa səsləyən. Amma nədənsə bu fani dünyada unudulmaqdan çox qorxurdu Böyükağa müəllim…

"Unudulmaq qorxusunu ürəyində gəzdirən Böyükağa müəllim, siz möhtəşəm, nəhəng, köklü bir ağacsınız. Yetirmələriniz, saysız-hesabsız pöhrələriniz sizi heç vaxt unutmağa qoymaz. Onlar özləri də əzəmətli ağac olub, saldığınız bağı solmağa qoymayacaqlar. Adınızı dünya durduqca yaşadacaqlar. Çünki sizlər doğrudan da mədəniyyətimizin sabahını yaradanlardansınız" (5).

"Körpü" qəzetinin baş redaktoru Zakir Abbasın oğlunun toy məclisindəki çıxışı onun son çıxışı oldu… Təbrik üçün mikrafona dəvət olunanda nəzərlərim ani olaraq şair, həkim Qəni ilə bir süfrə arxasında əyləşən Böyükağa müəllimə sataşdı. Düzü onun bu məclisdə iştirak etdiyini öncədən bilmirdim, ona görə də bir qədər həyəcanlandım… Lakin mənə zillənən səmimiyyət dolu baxışların təmasından ürəklənib onu "səhnəyə" dəvət etdim. Mikrafonu tutarkən əllərinin əsdiyini hiss etdim, sözə başlarkən səsinin titrədiyini duydum. Çöhrəsi bir qədər avazımışdı. Çox həyəcanlı idi. Mən narahat olmağa başladım. Titrək səslə sözə başlayan Böyükağa müəllim isə artıq öz dünyasında idi… Deyirlər insan öz dünyasında daha xoşbəxt olur. O bu xoşbəxtliyi təkrar-təkrar yaşamaq istəyir. Lakin bu bir andı, məqamdı. Yaşandıysa yaşanmır. Böyükağa müəllim o anı, o məqamı bizlərə də yaşatdı və …

Səhərisi gün onun "infarkt" xəbərini aldım və çox üzüldüm… Bundan sonra Böyükağa müəllim nə az, nə çox, düz bir il yaşamaq üçün həyatla ölüm arasında mücadilədə bulundu…

Mən onunla 15 il bir kolektivdə çalışdım. Nə xoş ki, ustad saydığım bu gözəl insanın "məktəbindən" dərs aldım - onun sevimli "şagirdlərindən" oldum…

Amma nə yazıq ki… Bu gün Böyükağa müəllim öz haqq dünyasındadır. Və inanıram ki, ruhu həmişə bizimlədir.

Böyükağa müəllim haqqında yazdıqlarıma nöqtə qoya bilməsəm də tanrıdan ona rəhmət diləyərək xatirəsinə ünvanladığım bu ilk yazımı onun söylədiyi fikirlərlə tamamlamaq istərdim. "Dünya mənim, dünya sənin, dünya heç kimin". Bu misranın uzunluğuna ömrün əvvəli və axırını yerləşdirmək qeyri-mümkündür. Ömrün əvvəli mənim, axırı isə heç kimin. Əbədi təşəbbüs - dəyişməz nəticə. Arzu, ehtiras, inam, güc nə boyda olsa da bu misranın əbədi və dəyişməz nəticəsinə sığışa bilmir. Dünya heç kimin…"

***Məleykə MƏMMƏDOVA,***
***ADMİU-nun Kütləvi tədbirlər və bayramlar rejissorluğu kafedrasının müdiri***

**Ədəbiyyat siyahısı**

**1.F.Sultanov. Azərbaycanda teatr təhsili. Dərs vəsaiti.**

**4. B.Kazımov. Azərbaycan teatr sənətinin tədrisi. Dərs**